# Böyük Britaniya Parlamentinin İcmalar Palatasının Azərbaycanla dostluq qrupunun rəhbəri Bob Bləkmən Şuşa və Füzuli şəhərlərində olub





Noyabrın 10-da ölkəmizdə səfərdə olan Böyük Britaniya Parlamentinin İcmalar Palatasının üzvü və Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Bob Bləkmənin başçılıq etdiyi parlament nümayəndə heyəti Şuşa və Füzuli şəhərlərində olub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Böyük Britaniya Parlamentinin nümayəndə heyətini Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, Milli Məclisdə Xankəndi şəhərinin deputatı Tural Gəncəliyev, ölkəmizin Böyük Britaniyadakı səfiri Elin Süleymanov və digər rəsmi şəxslər müşayiət ediblər. Qonaqlar Cıdır düzündə, Yuxarı Gövhər ağa məscidində, kilsədə olmuş, Şuşanın qala divarlarını seyr etmişlər.

Nümayəndə heyəti Şuşada Natəvanın ev kompleksinə, Şəhər meydanına və "Xan qızı" bulağına da baş çəkib.

Həmin gün parlament nümayəndələri Füzuli şəhərinə gələrək burada Füzuli Beynəlxalq Hava Limanı ilə tanış olmuşlar.

Böyük Britaniya Parlamentinin İcmalar Palatasının üzvü və Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Bob Bləkmənin başçılıq etdiyi parlament nümayəndə heyətinin ölkəmizə səfəri davam edir.

Azərbaycan.- 2021.-12 noyabr.- S.3.